# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 sentyabr 2026-cı il, çərşənbə axşamı
№ 161 (7228)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Xəzərdə ən güclülərdən biri

## Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Hərbi Dəniz Qüvvələrində...



Bax səh. 2

# Moskvadan Bakıya zəng

Bax səh. 3

## Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir

Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Babək rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlib, regionların sosial-iqtisadi inkişafı sürətlənib, genişmiqyaslı quruculuq və abadlıq işləri həyata keçirilib.

İ.Məmmədov qeyd edib ki, ötən müddət ərzində YAP Babək rayon təşkilatı qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirib.

Konfransda Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxış edərək Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlərdən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Azərbaycanın davamlı inkişafının təmin edilməsində və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində roluna diqqəti cəlb edib.

YAP İdarə Heyətinin üzvü...

Bax səh. 5



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş

## Borc strategiyası üzrə strateji məqsədlərə nail olunub

Bax səh. 3

## Kənd təsərrüfatında yeni subsidiya qaydaları

Bax səh. 3

## YAP xalqın iradəsini ifadə edən aparıcı siyasi qüvvədir

Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı, beynəlxalq nüfuzunun yüksəldilməsi və vətəndaşların rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm nəticələr əldə olunub. Qeyd olunub ki, YAP Abşeron rayon təşkilatı fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun quraraq rayonun ictimai-siyasi həyatında fəal iştirak edib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rolunu qeyd edib, rayon təşkilatının səmərəli fəaliyyətinin əhəmiyyətindən danışıb. O, təşkilatın fəaliyyətində əldə olunan nəticələri yüksək qiymətləndirərək qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulayıb.

Milli Məclisin deputatı Ramid Namazov çıxışında müasir dövrdə siyasi təşkilatların qarşısında duran çağırışlardan, informasiya...

Bax səh. 6




## Almaniyada əyalət seçkilərinin qalibi ifrat sağçılar oldular

Bax səh. 6

## Beynəlxalq hüququn sərhədi harada bitir



Bax səh. 7

# Xəzərdə ən güclülərdən biri

## Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Hərbi Dəniz Qüvvələrində...

Azərbaycan dövləti dünyadakı reallıqları nəzərə almaqla ordunun döyüş qabiliyyətinin davamlı olaraq artırılmasına və müdafiə sənayesinin inkişafına güclü siyasi iradə nümayiş etdirir. Bu siyasətin davamı olaraq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu günlərdə Hərbi Dəniz Qüvvələrində (HDQ) olublar.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı və birinci xanım Hərbi Dəniz Qüvvələrinin qərargahının qarşısında Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən "MİRAS Hərbi-Sənaye Şirkəti" MMC-nin və "DEARSAN Gəmi İnşaat Sənaye" AŞ-nin birgə istehsalat sahəsində qabaqcıl texnoloji innovasiyaların tətbiqi ilə hazırlanan SALVO (SİDV) silahlı insansız dəniz vasitələri, KAYRA (KİDV) kamikadze insansız dəniz vasitələrinin təyinatı və taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

Sonra dövlətimizin başçısı və birinci xanım istehsalat sahəsində görülən işlərlə tanış olublar.

Daha sonra burada istehsal olunan insansız dəniz vasitələri praktiki sınaqdan keçirilib.

Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə hərbi quruculuq məsələlərinə dair operativ müşavirə keçirilib.















### Tarixə qısa baxış

Bu gün Azərbaycanın Hərbi Dəniz Qüvvələri imkanlarına görə Xəzər dənizində ən güclü donanmalar sırasındadır. Donanmanın tərkibində yüksək döyüş hazırlığına malik sualtı hücum və sualtı müdafiə (SAX/SUO) xüsusi təyinatlı dəstələri var. Onlar dənizdə terrorizmə qarşı əməliyyatlar, gəmilərin azad edilməsi və sahil diversiyalarının qarşısının alınması üçün müasir yüngül silahlar, sürətli rezin katerlər və xüsusi sualtı avadanlıqlarla təchiz olunublar. Keçdiyi şərəfli yol nəzərə alınmaqla Azərbaycanda hər il avqustun 5-i Ümummilli Lider Heydər Əliyevin 1996-cı ildə imzaladığı Fərmana əsasən, Hərbi Dəniz Qüvvələri Günü kimi qeyd edilir.

Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin yaranma tarixi 1919-cu ilin avqust ayına təsadüf edir. Həmin dövrdə ingilis qoşunları Azərbaycanı tərk etdikdən sonra milli hərbi donanmanın formalaşdırılmasına başlanılıb. Bundan əvvəl Xəzər dənizinin qərb sahillərinin müdafiəsini ingilis hərbi gəmiləri həyata keçirirdi.

Yeni yaradılan hərbi donanmada yüksəkrütbəli azərbaycanlı zabitlərdən yalnız "Ərdahan" və "Astrabad" gəmilərində xidmət edən dəniz xidməti kapitanı Həsən Çilingərzadə və I dərəcəli kapitan Gitançızadə təmsil olunurdu. Həmin dövrdə Hərbi Nazirliyin tərkibində donanma üzrə ayrıca bölmə olmadığından Xəzər hərbi donanmasına aid məsələlərə Nəqliyyat Nazirliyi nəzarət edirdi.

1919-cu ilin sonlarında Baş qərargahın nəzdində 6 ştat vahidindən ibarət xüsusi hərbi dəniz şöbəsi yaradıldı. Azərbaycan Xəzər hərbi donanmasının tərkibində 75, 100 və 120 millimetrlik toplarla silahlandırılmış "Ərdahan" və "Kars" kanoner gəmiləri, "Astrabad", "Göytəpə", "Araz", "Nargen" xidməti və köməkçi gəmiləri, "Oryol" nəqliyyat gəmisi, silahlı "Puşkin" paroxodu, eləcə də kifayət qədər kater mövcud idi.

Kadr hazırlığını gücləndirmək məqsədilə Bakı Dəniz Aviasiyası Məktəbinin bazasında Xüsusi Hərbi-Dəniz Aviasiyası Məktəbi yaradıldı, 1919-cu il oktyabrın 14-də isə dəniz aviasiyası dəstəsi formalaşdırıldı.

Donanmanın texniki imkanlarının artırılması üçün Paris Sülh Konfransına təqdim edilən memorandumda sualtı qayıqlar, mərmi ehtiyatları və digər zəruri vasitələrlə təminata dəstək göstərilməsi xahiş olunmuşdu. Bu çərçivədə 6 sualtı qayıq, müxtəlif tipli döyüş katerləri və dəniz artilleriyası sifariş edilsə də, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu güclü hərbi donanmanın yaradılmasına imkan vermədi.

### "Bakılı" gəmisində ilk dəfə Azərbaycan bayrağı qaldırıldı

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il oktyabrın 9-da parlamentdə qəbul edilən "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanun Silahlı Qüvvələrin tərkib hissəsi kimi Hərbi Dəniz Qüvvələrinin yaranmasının hüquqi bazasını müəyyənləşdirdi. Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan arasında əldə olunan razılığa görə respublikamız keçmiş Xəzər hərbi donanmasının ərazisində yerləşən bütün bazalarına və hərbi gəmilərinin 25 faizinə sahib oldu.

1992-ci il iyulun 26-da "Bakılı" gözətçi gəmisində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli Dövlət Bayrağı qaldırıldı və bununla da, Hərbi Dəniz Qüvvələrinin formalaşdırılması prosesi başladı. İlk mərhələdə donanmanın tərkibinə müxtəlif tipli gəmilərdən ibarət 5 diviziya və sahil bölmələri daxil edildi. Eyni zamanda, Xəzər hövzəsində müşahidə məntəqələri və mayakların fəaliyyəti bərpa olunmağa başladı.

1997-ci il noyabrın 4-də qəbul edilən "Azərbaycan Respublikasının Hərbi Dəniz Bayraqları haqqında" Qanunla hərbi və köməkçi gəmilərdə qaldırılan bayraqların əsasnaməsi qəbul edildi. 2000-ci il avqustun 7-dən etibarən isə Hərbi Dəniz Qüvvələrinin bütün gəmilərində rəsmi hərbi dəniz bayrağı qaldırıldı.

2015-ci ildə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Qaradağ rayonunda tikilən Hərbi Dəniz Qüvvələrinin yeni və müasir bazası istifadəyə verildi. Burada qərargah binası, körpülər, hərbi şəhərcik tikilib, eləcə də müasir kommunikasiya infrastrukturu yaradılıb. Gələcəkdə yeni gəmilərin inşası və mövcud gəmi-katerlərin modernləşdirilməsi də nəzərdə tutulur.

Bu gün Azərbaycan Hərbi Dəniz Qüvvələrinin arsenalında həm keçmiş SSRİ dövründən qalan və sonradan modernləşdirilən gəmilər, həm də beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində alınan müasir texnikalar cəmləşib. Donanmanın flaqman gəmilərindən olan "Bakı" freqatı sualtı qayıqlara qarşı silahlar və artilleriya qurğuları ilə təchiz olunub. Xəzərdə sərhəd mühafizəsi və patrul xidməti üçün "Stenka" sinifli patrul gəmiləri (məsələn, G129) və ABŞ-dan alınan "Point" tipli katerlərdən istifadə olunur. Çevik zərbə endirmək imkanına malik olan "Osa-II" sinifli raket katerləri donanmanın əsas zərbə qüvvələrindəndir. Dəniz yollarının təhlükəsizliyi üçün HDQ-nin sərəncamında "Sonya" və "Yevgenya" sinifli bir neçə mina axtaran və təmizləyən gəmi fəaliyyət göstərir. Sahilə qoşun və hərbi texnika çıxarmaq qabiliyyətinə malik "Polnocny" sinifli böyük və kiçik desant gəmiləri donanmanın mobil imkanlarını artırır. Donanmanın tərkibində yüksək döyüş hazırlığına malik sualtı hücum və sualtı müdafiə (SAX/SUO) xüsusi təyinatlı dəstələri var. Onlar dənizdə terrorizmə qarşı əməliyyatlar, gəmilərin azad edilməsi və sahil diversiyalarının qarşısının alınması üçün müasir yüngül silahlar, sürətli rezin katerlər və xüsusi sualtı avadanlıqlarla təchiz olunublar.

Azərbaycan Hərbi Dəniz Qüvvələri həm qardaş Türkiyənin, həm də digər ölkələrin müvaviq hərbi strukturları ilə təlimlərə qatılmaqla özünün manevr qabiliyyətini yüksəldir. Məsələn, Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı Mərkəzinin şəxsi heyəti Türkiyənin və Amerika Birləşmiş Ştatlarının dəniz piyadaları ilə birgə təlimlərdə iştirak edib. Bununla yanaşı, zabitlərin peşə hazırlığının artırılması məqsədilə müxtəlif ölkələrlə təcrübə mübadiləsi aparılıb və onların beynəlxalq tədbirlərdə iştirakı təmin olunub.

Döyüş hazırlığı planına uyğun olaraq, Xəzər hövzəsinin cavabdehlik zonasında əlverişli əməliyyat şəraitinin qorunması, sualtı ixrac neft-qaz boru kəmərlərinin və platformalarının mühafizəsinin təmin edilməsi məqsədilə hər il Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri və Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi və digər qurumlar birgə təlimlər keçirir. Sonuncu belə təlimlərdən biri cari ilin iyun ayında baş tutub. Belə ki,







### Təlimlərdə bərkiyən döyüş hazırlıqları

Hərbi Dəniz Qüvvələrində Hərbi Hava Qüvvələrinin (HHQ), Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin (DSXSM) və Fövqəladə Hallar Nazirliyinin (FHN) iştirakı ilə "Dənizdə və sahilyanı ərazilərdə kritik enerji infrastrukturuna təhdidlər zamanı müdafiə əməliyyatlarının aparılması" mövzusunda döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyindən verilən məlumata əsasən, HDQ-nin döyüş, döyüş təminatı və təminat gəmilərinin, eləcə də Dəniz xüsusi təyinatlı və Dəniz piyada bölmələrinin də iştirak etdiyi təlim bir neçə mərhələdə baş tutub. Təlimin məqsədi komandir heyətinin ekstremal vəziyyətlərdə operativ qərar qəbuletmə bacarıqlarının və komanda-qərargah fəaliyyətlərinin təkmilləşdirilməsi, eləcə də gəmilərin tək-tək və taktiki qrup tərkibində döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıqlarının yoxlanılması olub.

Plana əsasən təlimə cəlb olunan bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq tam döyüşə hazırolma dərəcəsinə gətirilib və əməliyyat rayonlarına çıxarılıb. Təlimdə HDQ-nin və DSXSM-nin gəmi-taktiki və gəmi-zərbə qrupları, eləcədə HHQ-nin insansız hava vasitələri tərəfindən patrulaparma fəaliyyətləri, təxribat və hücum cəhdlərinin qarşısının alınması, həmçinin hava, suüstü və sualtı vasitələrinin, üzən minaların, bazalaşma məntəqələrinin məhv edilməsi və zərərsizləşdirilməsi üzrə döyüş çalışmaları uğurla yerinə yetirilib.

Sonrakı mərhələdə dəniz xüsusi təyinatlı bölmələri HDQ-nin və DSXSM-nin gəmiləri ilə qarşılıqlı fəaliyyətdə dənizdə və sahildə yerləşən kritik infrastruktur obyektlərinin, sahilyanı ərazilərin mühafizəsi və müdafiəsi tapşırıqlarını icra edib, şərti düşmənin təxribat və hücum fəaliyyətlərinin qarşısının alınması məqsədilə kəşfiyyat-diversiya qruplarının məhv edilməsi fəaliyyətlərini yerinə yetirib, eləcə də HHQ-nin helikopterlərinin dəstəyi ilə terrorçu qrupların bazalaşma məntəqələrinə eniş edərək adada və sahilyanı ərazidə sığınacaqlarda gizlənmiş silahlı qrupları zərərsizləşdiriblər. Təlim iştirakçıları digər tapşırıqları da yüksək peşəkarlıqla yerinə yetiriblər.

### Qardaş Türkiyə ilə sıx əməkdaşlıq

Hazırda zirvələrdə olan Azərbaycan Türkiyə münasibətləri bir-birinə "qardaşım" deyə xitab edən liderlərin qətiyyətli siyasi iradələrinə uyğun olaraq ən müxtəlif sahələri əhatə edir. O cümlədən 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi ilə iki qardaş ölkə arasında hərbi əməkdaşlıq yeni səviyyəyə yüksəlib. Hazırda qalib Azərbaycan Silahlı Qüvvələri NATO-da ikinci ən böyük hərbi güc sayılan Türkiyə ordusunun modeli əsasında inkişaf etdirilir. Bununla da ordumuzda müasir NATO standartlarına keçid edilir.

Türkiyə ordusu ilə genişlənən əməkdaşlıq həmçinin Hərbi Dəniz Qüvvələrini də əhatə edir. Qeyd edək ki, bu əməkdaşlığın əsası Azərbaycan HDQ-nin yarandığı ilk vaxtlardan qoyulub və getdikcə daha da möhkəmləndirilib. Xatırladaq ki, Türkiyə ilə hərbi əməkdaşlıq çərçivəsində P-223 kiçik artilleriya kateri Azərbaycana hədiyyə edilib. Kater 2000-ci il iyulun 22-də İzmirdən yola çıxaraq Türkiyə, Ukrayna və Rusiya ərazilərindən, Egey, Mərmərə, Qara, Azov və Xəzər dənizlərindən, Çanaqqala, İstanbul və Kerç boğazlarından, Don və Volqa çaylarından və onları birləşdirən 18 hovuzdan keçərək ümumilikdə 2345 dəniz mili məsafə qət edib və avqustun 7-də Hərbi Dəniz Qüvvələrinin əsas bazasına gətirilib.

Son illərdə isə donanmanın arsenalı Türkiyə ilə birgə layihələr çərçivəsində inkişaf etdirilir. Məsələn, yuxarıda bəhs olunan SALVO tipli silahsız və silahlı dəniz dronları (məsafədən idarə olunan raket və pulemyot sistemləri ilə) Xəzər dənizində kəşfiyyat və zərbə missiyalarını yerinə yetirir. Artıq ölkəmizdə qurulan istehsalatda bu qəbildən olan müasir texnikanın istehsalı qaydaya salınıb.

### Qarabağ müharibəsinin sınaqlarından keçən şəxsi heyət

Azərbaycan Silahlı Qüvvələrinin digər bölmələri kimi, Hərbi Dəniz Qüvvələri də bilavasitə ağır döyüşlərin - həm Birinci, həm də İkinci Qarabağ müharibələrinin sınaqlarından keçərək onlara həvalə olunan döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetiriblər. Qarabağ uğrunda gedən döyüşlər zamanı Hərbi Dəniz Qüvvələrinin gəmi və sahil bölmələrinin şəxsi heyəti əsasında qısa müddətdə Dəniz Piyadası Taboru yaradılıb. Tabor 1994-cü il aprelin 19-da Ağdam-Tərtər istiqamətində hücumların qarşısını almaq məqsədilə cəbhəyə göndərilib və iyulun 25-də tapşırığı uğurla yerinə yetirdikdən sonra hərbi hissəyə qayıdıb.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları yüksək peşəkarlıq və qəhrəmanlıq nümayiş etdirərək Zəngilan, Cəbrayıl, Füzuli, Qubadlı rayonlarının və Şuşa şəhərinin azad olunmasında fəal iştirak ediblər. 2020-ci il oktyabrın 25-də Qubadlının azad edilməsi barədə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə videogörüntü ilə məruzə edən Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının komandiri idi.

Vətən müharibəsi zamanı Hərbi Dəniz Qüvvələrinin 9 hərbi qulluqçusu şəhid olub, 50 nəfər isə yaralanıb. Prezidentin müvafiq sərəncamları ilə şəhid kiçik miçman Fəqan Amil oğlu Zalova ölümündən sonra, daha 2 hərbi qulluqçuya isə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. Digər hərbi qulluqçular müxtəlif orden və medallarla təltif olunublar.

**Mübariz ABDULLAYEV**

# Moskvadan Bakıya zəng



Sentyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon danışığı zamanı dövlət başçıları iqtisadi-ticari və humanitar əməkdaşlığın bir sıra aktual məsələlərini müzakirə ediblər.

İkitərəfli əlaqələrin müxtəlif səviyyələrdə intensivləşdirilməsi barədə razılıq əldə olunub.

# Borc strategiyası üzrə strateji məqsədlərə nail olunub

## Dövlət borcunun idarə edilməsi istiqamətində görülən işlər müzakirə edilib

Maliyyə Nazirliyi yanında İctimai şuranın üzvləri ilə görüşdə dövlət borcunun idarə edilməsi istiqamətində görülən işlər müzakirə edilib. Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktor müavini Pərvin Manafov bildirib ki, "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022-2025-ci illər üzrə yenilənməsi çərçivəsi" sənədində nəzərdə tutulan strateji məqsədlərə tam nail olunub. Dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyada nəzərdə tutulan ümumi dövlət borcuna xidmət xərcləri üzrə yuxarı hədd (dövlət büdcəsi xərclərinin 10 faizindən artıq olmaması) 2026-cı ilin birinci yarısı ərzində gözlənilib. Hazırda planlaşdırılan layihələrin maliyyələşdirilməsi məqsədilə sənəddə nəzərdə tutulan prioritet tədbirlərin icrası davam etdirilir.

Azərbaycanın suveren kredit reytinqində son dövrdə müşahidə olunan müsbət dəyişikliklər, bu istiqamətdə görülən işlər və beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıqdan bəhs edən Manafov növbəti dövr üzrə yenilənəcək Borc Strategiyası çərçivəsində nəzərdə tutulan prioritet tədbirlərin icrasına diqqət çəkib.

### Xarici borc azalaraq ÜDM-in 6 faizinə düşüb

Cari il iyulun 1-nə Azərbaycanın xarici dövlət borcu 4 milyard 616,8 milyon dollar təşkil edib ki, bu, ümumi daxili məhsulun (ÜDM) 6 faizinə bərabərdir. Borc 2026-cı ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 196,7 milyon dollar və ya 4,1 faiz azalıb. Ümumilikdə, xarici dövlət borcunun ÜDM-ə nisbəti 2026-cı ilin əvvəli ilə müqayisədə 0,3 faiz bənd aşağı düşüb. Hesabat tarixinə xarici dövlət borcunun tərkibində dəyişkən faiz dərəcəsi ilə olan öhdəliklər xarici dövlət borcunun 49,4 faizini, sabit dərəcə ilə olanlar isə 50,6 faizini təşkil edib. Xarici dövlət borcu portfelinin 35,7 faizi Asiya İnkişaf Bankının, 30 faizi avrobondların, 12,9 faizi Dünya Bankının, 21,4 faizi isə İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Asiya İnfrastruktur və İnvestisiya Bankı və digər kreditorlardan cəlb edilmiş öhdəliklərin payına düşüb.



Birinci yarımillikdə  dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbəti 5,6 faiz təşkil edib.

Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələri sırasında yer alır. Ölkəmiz regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükə-

### Dünyada və Cənubi Qafqazda ən az xarici borca malik ölkə

sizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2026-ci ilin birinci yarısında 13 milyard dollar olmaqla ÜDM-in 55 faizini təşkil edir. Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 44,6 fazidən yuxarıdır.

Avropa regionunda və Cənubi Qafqaz ölkələri qrupunda borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir.

2026-ci il avqustun 1-nə olan dövrdə Azərbaycanın strateji valyuta ehtiyatları 86 milyard 814,9 milyon dollar təşkil edib ki, bu da xarici dövlət borcunun təqribən 18,8 dəfə üstələnməsi deməkdir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,2 milyard dolar olmaqla borcdan 2,5 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 14 milyard dolar olmaqla təxmini olaraq borcdan xeyli azdır.



Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytinqi ilə

### Borclanma ilə bağlı təmkinli siyasət yürüdülür

bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq Böyük Qayıdışın sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

Dövlət borcunun idarə olunmasında beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi, "2026-2030-cu illər üzrə dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədinin layihəsinin hazırlanması işləri davam etdirilir. Proses çərçivəsində Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin fəaliyyət istiqamətlərinə

### 2026-2030-cu illərə dair yeni Strategiya

uyğun olaraq hüquqi-institusional çərçivənin təkmilləşdirilməsi nəzərdə tutulur. Strategiya ümumi dövlət borcunun ÜDM-ə nisbətinin məqbul səviyyədə saxlanılması, xarici borcun tənzimlənməsi və fiskal dayanıqlığın gücləndirilməsini hədəfləyir. 2027-ci ildə borcun 4 milyard 833 milyon dollar, daxili dövlət borcunun isə 19 milyard 387,1 milyon manat olmaqla ümumi dövlət borcunun 27 milyard 604,1 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır. Növbəti ildə daxili dövlət borcunun 55,3 faizini daxili maliyyə bazarlarında emissiya olunmuş dövlət istiqrazlarının təşkil etməsi proqnozlaşdırılır. İlin sonuna dövriyyədə olan dövlət istiqrazlarının 51 faizi 5 ilədək, 49 faizi isə 5 il və daha artıq istiqrazların payına düşməsi gözlənilir. Növbəti illərdə də təmkinli borc siyasəti üzrə hədəf göstəricilərinin tam nəzarətdə saxlanması planlaşdırılır.

*E.CƏFƏRLİ*

# Kənd təsərrüfatında yeni subsidiya qaydaları

## Aqrar Subsidiya Şurası dövlət dəstəyi mexanizmlərini təsdiqləyib

Aqrar Subsidiya Şurası kənd təsərrüfatında məhsuldarlığın və istehsalın artırılması, müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, emal və ixrac yönümlü istehsalın təşviqi, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, eləcə də ölkənin ərzaq təminatının gücləndirilməsi hədəflərinə uyğun olaraq yeni subsidiya mexanizmləri və subsidiya şərtlərində dəyişiklikləri təsdiq edib.Əkin subsidiyasının alınması üçün sığortalanması tələb olunan bitkilərin siyahısında və onların əkin sahəsinin minimum ölçüsündə dəyişiklik edilib. Belə ki, əsas və təkrar əkin subsidiyasının əldə edilməsi üçün sığortalanmalı olan bitkilərin siyahısına arpa, buğda, çəltik, qarğıdalı ilə yanaşı günəbaxan əlavə edilmiş, əkin sahələrinin minimum ölçüsü isə 7 hektar müəyyən edilib. Bağçılıq subsidiyası üçün isə yeni salınmış bağların azı 3 il müddətinə sığortalanması tələb olunur.

### Taxıl əkənlərə hər hektara 400, kartof və tərəvəz əkənlərə 500 manat

Yeni qərara əsasən, taxıl əkinləri üzrə subsidiya məbləğləri suvarma üsulu və istehsalın ixtisaslaşması nəzərə alınmaqla diferensiallaşdırılıb. "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn tələblər üzrə 22 ixtisaslaşmış rayonda müasir suvarma altında buğda əkininə ənənəvi suvarma və ya dəmyə üsulu ilə aparılan əkinlərdən 2 dəfə artıq, yəni hər hektara 400 manat subsidiya ödəniləcək. Ənənəvi suvarma və dəmyə əkini altında olan taxıl sahələri üzrə əkin subsidiyası 200 AZN/ha olaraq müəyyən edilib. Suvarma altında olan sahələrdə hər hektara ödənilən əkin subsidiyası kartof və tərəvəzlə yanaşı noxud, lobya və digər paxlalılar üçün 500 manata, bostan bitkiləri üçün isə 310 manata çatdırılıb. Beləliklə, xüsusilə suya qənaət edən müasir suvarma sistemlərindən istifadə edən fermerlər üçün dövlət dəstəyinin məbləği artırılır.



Həmçinin dağlıq rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında aparılan kartof və tərəvəz əkinlərinə ödənilən subsidiya müasir suvarma ilə təmin edilən sahələr üçün hər hektarda 600 manata, digər sahələr üçün isə 400 manata çatdırılıb.

### Texnika alınmasına görə, güzəştlər

Kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların alınmasına tətbiq olunan güzəşt mexanizmlərinə də dəyişiklik edilib. Taxıl, pambıqyığan, yemyığan və yempaylayan kombaynlar, lazer hamarlayıcılar, soyuducu anbarlar, taxıl siloları, suvarma hovuzları üçün membranlar və aqrar istehsalda istifadə edilən günəş panelləri üzrə güzəşt tətbiq edilən hissə 50 faizə qədər artırılıb. Yerli istehsal damcı suvarma sistemlərində güzəşt tətbiq edilən hissə 60 faiz, xarici istehsal sistemlərində isə 50 faiz olacaq. Kiçik şərabçılıq müəssisələrinin yaradılması üçün avadanlıqlar üzrə güzəşt 60 faiz, istixanalarda istifadə olunan texnoloji avadanlıqlar, habelə yerli istehsal metal konstruksiya və şüşələr üzrə güzəşt 20 faiz həddində müəyyən edilib.




Aqrar Subsidiya Şurasının qərarı ilə Azərbaycanda bağların salınması zamanı fermerlərin subsidiya əldə etməsini asanlaşdırmaq məqsədilə bir sıra mövcud tələblər

### Bağçılıq subsidiyalarının şərtləri sadələşdirilib

sadələşdirilib. İntensiv zeytun bağlarında minimum sahə tələbi 50 hektardan 5 hektara, Naxçıvan MR-də isə bütün bağlar üzrə minimum sahə tələbi 1 hektara endirilib. İntensiv püstə bağları üzrə yüksəklik həddi 1000 metrədək artırılır. Qarabağ və Şərqi Zəngəzurda nar üzrə minimum yüksəklik tələbi ləğv edilib, zeytun üzrə maksimal yüksəklik 300 metrə qədər artırılıb, Naxçıvanda isə qoz bağları üzrə minimum yüksəklik tələbi aradan qaldırılıb. Pambıq üzrə məhsul subsidiyası da istifadə olunan suvarma texnologiyasına uyğun diferensiallaşdırılıb. Ənənəvi suvarmada subsidiya 200 manat/ton, sprinkler və pivot suvarmada hər ton üşün 215 manat, damcı suvarmada isə 300 manat müəyyən edilib.

Qeyd edək ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına birbaşa subsidiyaların verilməsi aqrar sahənin hərtərəfli inkişafında və ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas dövlət dəstəyi mexanizmlərindən biri kimi qəbul olunur.

Hazırda ölkəmizdə qida məhsulları ilə özünü təmin etmə əmsalı bəzi məhsullar üzrə tam tələbatı ödəyir, bəziləri üzrə 70-80 faiz nisbətindədir, bəziləri üzrə isə 60 faizdən aşağıdır. Məhz bu nöqteyi-nəzərdən həmin əsas qida mallarının istehsal zəncirinin qurulması üçün davamlı tədbirlərə ehtiyac var.  Daxili tələbatı ödəmək üçün isteh-

### Beşillik əsas hədəflər

sal sahələri genişləndiriləcək. Bitki yağları istehsalının artırılması üçün bitkiçilik sahəsinin dəstəklənməsi, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi planlaşdırılır. Eyni zamanda azı 2 bitki yağı emalı zavodunun yaradılması hədəflənir. Bundan başqa, digər emal və istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Habelə yeni aqroparklar, heyvandarlıq və fermer təsərrüfatları yaradılacaq. Bundan başqa, iplik və parça istehsalının təşviq edilməsi üçün güzəştli kreditlərin ayrılması, ipək və xalçaçılıq üzrə emal sahələrinin institusional təkmilləşdirilməsi, pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyasının tətbiq edilməsi nəzərdə tutulub. Eyni zamanda azı 2 yeni iplik və ya parça emalı müəssisəsinin dəstəklənməsi, pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artırılması planlaşdırılır.

Cari ilin əvvəllərində dövlət başçısı tərəfindən təsdiq olunan "Kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın əsas hədəfləri sırasında müasir suvarma sistemlərinin tətbiq olunduğu əkin sahələrinin genişləndirilməsi, ixtisaslaşmış rayonlarda buğda və pambıq üzrə məhsuldarlığın artırılması, intensiv meyvə bağlarının və istixana komplekslərinin sahəsinin genişləndirilməsi, soyuducu anbarlar və taxıl siloları üzrə mövcud imkanların artırılması, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması, həmçinin quş əti, süd, mal əti, qoyun əti, yumurta və akvakultura məhsulları istehsalının artırılması yer alıb. Proqramda suvarma üzrə enerji təminatının yaxşılaşdırılması da əsas prioritetlərdəndir ki, bu istiqamətdə nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi kənd təsərrüfatında yeni imkanların yaradılmasını təmin edəcək.

Beləliklə, aqrar sahədə tətbiq edilən yeni subsidiya mexanizmləri regional ixtisaslaşmanı, innovativ texnologiyaların tətbiqini, torpaq və su resurslarından səmərəli istifadəni, ümumilikdə isə dayanıqlı inkişafı təşviq edəcək.

*E.CƏFƏRLİ*

# YAP Sədrinin müavini Tahir Budaqov AK Parti Gənclik Qollarının nümayəndə heyətini qəbul edib









Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının sədri Yusuf İbişin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin uğurla inkişaf edərək strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb.

Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra regionda yeni reallıqların yarandığı, 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin istər Azərbaycan ilə Türkiyə arasında çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi, istərsə də bölgədə sülh və təhlükəsizliyin təşviqi baxımından önəmi diqqətə çatdırılıb.

Azərbaycan-Türkiyə birliyinin Türk dünyasında da rifah və tərəqqiyə xidmət etdiyi, genişmiqyaslı və səmərəli birgə fəaliyyətin Türk Dövlətləri Təşkilatının (TDT) qlobal miqyasda güc mərkəzinə çevrilməsinə hədəfləndiyi söylənib. Vurğulanıb ki, TDT-nin müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsi hər iki dövlət üçün mühüm prioritetdir və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirilir.

İki dost və qardaş ölkə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin müstəsna rolu qeyd olunaraq 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapan vəzifələrin uğurla icra olunduğu bildirilib.

2022-ci ildən etibarən hər il Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa Bəyannaməsinin ildönümü və 15 İyun - Milli Qurtuluş Günü ilə əlaqədar Şuşa şəhərində keçirilən konfransların beynəlxalq münasibətlər sistemində çoxtərəfli əməkdaşlıq imkanlarının müzakirə edildiyi nüfuzlu siyasi platforma kimi əhəmiyyəti qeyd olunub.

Görüş zamanı hər iki ölkədə uğurla həyata keçirilən gənclər siyasətinin önəmi, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlər məmnunluqla qeyd olunmuş, bu sahədə təmasların sıxlaşdırılmasının, qarşılıqlı səfərlərin və birgə layihələrin vacibliyi vurğulanmışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də müzakirələr aparılıb.

# YAP Gənclər Birliyinin və AK Parti Gənclik Qollarının nümayəndələri arasında görüş keçirilib







Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Gənclər Birliyinin nümayəndələri ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının nümayəndə heyəti arasında görüş keçirilib.

Qonaqları salamlayan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ortaq dəyərlərə, milli maraqlara, dostluq və qardaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün ən yüksək zirvədə olduğunu qeyd edib. O bildirib ki, dövlət başçılarının siyasi iradəsi nəticəsində uğurla inkişaf edən dövlətlərarası münasibətlər bu gün dünyada nümunəvi xarakter daşıyır.

Bəxtiyar İslamov hakim partiyaların gənclər təşkilatlarının birgə fəaliyyətinin müştərək hədəflərin reallaşdırılması baxımından önəmini diqqətə çatdırıb.

AK Parti Gənclik Qollarının sədri Yusuf İbiş Azərbaycan-Türkiyə münasibətlərinin sarsılmaz olduğunu bildirib. Dostluq və qardaşlıq ənənələrinin gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edən Yusuf İbiş gənclərin dövlətçilik dəyərlərinə sadiqliyinin və beynəlxalq platformalarda birgə fəaliyyət imkanlarının genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə gələcəyə yönəlik əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

# Müasir tariximiz möhtəşəm uğurlarla zəngindir







Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müdrik siyasəti müstəqil Azərbaycanın tərəqqisini təmin edib. O, müasir tariximizin möhtəşəm uğurlarla zəngin olduğunu söyləyib: “Uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan dünyanın qüdrətli dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatlarının hesablaşdığı, hörmətlə yanaşdığı ölkəyə çevrilib”.

YAP Tərtər rayon təşkilatının ötən müddət ərzində sıralarını genişləndirdiyini vurğulayan E.Əsədov “Əldə olunan nəticələrlə yanaşı, qarşıda mühüm vəzifələr də dayanır. Partiya üzvləri ilə işin daha da təkmilləşdirilməsi, ərazi partiya təşkilatlarının fəaliyyətinin gücləndirilməsi və vətəndaşlarla əlaqələrin daha yüksək səviyyəyə çatdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilir”, - deyə bildirib.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxış edərək diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyimizin dönməzliyinin təmin edilməsi, ölkənin hərtərəfli inkişafı, əhalinin rifahının yaxşılaşdırılması, milli-mənəvi dəyərlərimizin qorunması, ölkəmizin təhlükəsizliyinin təmin olunması və ordumuzun daha da gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilir. Onun sözlərinə görə, tarixi Zəfər nəticəsində ərazi bütövlüyünü bərpa etmiş Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artıb: “Bu uğurlu siyasətin həyata keçirilməsində Ulu Öndərimizin qurucusu olduğu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə fəaliyyətini müvəffəqiyyətlə davam etdirən Yeni Azərbaycan Partiyası müstəsna rol oynayır”.

Çıxış edən Milli Məclisin deputatı Anar Məmmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan bu günə qədər ölkəmizin milli maraqlarını qətiyyətlə qoruyub. Onun sözlərinə görə, 1992-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın yaranması və cəmi altı aydan sonra hakimiyyətə gəlməsi Azərbaycanı xaosdan, parçalanmaq təhlükəsindən xilas edərək sabitlik, inkişaf və quruculuq yoluna çıxardı: “Bu gün Yeni Azərbaycan Partiyası azərbaycançılıq ideologiyasının daşıyıcısı kimi milli birliyin qorunmasına mühüm töhfələr verir”.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbasov çıxış edərək Yeni Azərbaycan Partiyasının sıralarında Vətəni, xalqı sevən yüzminlərlə insanın birləşdiyini diqqətə çatdırıb. O, partiyanın ötən dövr ərzində xalqın inam və etimadını layiqincə doğrultduğunu vurğulayıb.

Daha sonra YAP Tərtər rayon təşkilatının Sarıcalı ərazi partiya təşkilatının sədri Vəsilə Mehdiyeva, “Tərtər Rayon Mərkəzi Xəstəxanası” ərazi partiya təşkilatının sədr müavini Pərvanə Xuduyeva və Təhsil ərazi partiya təşkilatının sədri Amil Hüseynov çıxış ediblər.

Konfransda YAP Tərtər rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Yeni Azərbaycan reallığı milli qürur mənbəyimizdir




Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Babək rayon təşkilatının XIII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlib, regionların sosial-iqtisadi inkişafı sürətlənib, genişmiqyaslı quruculuq və abadlıq işləri həyata keçirilib.

İ.Məmmədov qeyd edib ki, ötən müddət ərzində YAP Babək rayon təşkilatı qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl olaraq davam etdirib.

Konfransda Babək Rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxış edərək Azərbaycanın əldə etdiyi mühüm nailiyyətlərdən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Azərbaycanın davamlı inkişafının təmin edilməsində və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində roluna diqqəti cəlb edib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva isə çıxışında Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpasının tarixi əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, qalib Azərbaycan regionda yeni reallıqlar yaradıb. Ü.Həmzəyeva bu tarixi nailiyyətin Prezident İlham Əliyevin qətiyyətli siyasətinin nəticəsi olduğunu diqqətə çatdırıb.

Daha sonra YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsi müdirinin müavini Asif İmaməliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rolundan bəhs edib, partiyanın ölkənin inkişafına verdiyi töhfələri diqqətə çatdırıb. A.İmaməliyev vurğulayıb ki, YAP-ın gücü onun geniş sosial bazaya, möhkəm təşkilati struktura və vahid məqsəd ətrafında birləşən üzvlərə malik olması ilə şərtlənir. O, partiyanın bundan sonra da qarşıda duran bütün vəzifələri müvəffəqiyyətlə yerinə yetirmək əzmində olduğunu bildirib.

Babək rayonu Təhsil şöbəsinin müdiri, YAP Babək rayon təşkilatı təhsil şöbəsi ərazi partiya təşkilatının sədri Sahil Əlizadə və partiyanın gənc üzvü Şəhla Tarverdiyeva gənc nəslin ictimai-siyasi proseslərə cəlb olunmasının, onların təşəbbüskarlığının dəstəklənməsinin önəmindən bəhs ediblər.

Konfransda YAP Babək rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# Xalq-iqtidar birliyi sarsılmaz təməllərə söykənir




Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının XIII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev hesabat məruzəsi ilə çıxış edib. O, YAP-ın keçdiyi zəngin və şərəfli inkişaf yolundan, partiyanın ölkənin ictimai-siyasi həyatındakı mühüm rolundan danışaraq qeyd edib ki, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xəttə sadiq qalaraq fəaliyyətini uğurla davam etdirir. Bildirilib ki, YAP Xətai rayon təşkilatı da öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinə uyğun şəkildə quraraq qarşıya qoyulan vəzifələrin icrasında fəal iştirak edib.



Çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev Yeni Azərbaycan Partiyasının siyasi sistemin aparıcı qüvvəsi olduğunu vurğulayaraq bildirib ki, rayonun ictimai həyatında partiya üzvlərinin fəal iştirakı, vətəndaşlarla mütəmadi əlaqələrin qurulması və sosial təşəbbüslərin dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. O, qarşıdakı dövrdə də bu istiqamətdə fəaliyyətin davam etdirilməsinin vacibliyini qeyd edib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında Yeni Azərbaycan Partiyasının zəngin siyasi ənənələrinin qorunmasının önəmini vurğulayıb. O, partiya veteranlarının təcrübəsindən səmərəli istifadə edilməsinin, onların bilik və tövsiyələrinin gənclərlə bölüşülməsinin gələcək fəaliyyət baxımından müstəsna əhəmiyyət daşıdığını qeyd edib.

Sonra çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin Heydər Əliyev ideyalarını yaşadan Yeni Azərbaycan Partiyasının ümumxalq etimadını doğrultduğunu bildirib. O, YAP Xətai rayon təşkilatının gələcək fəaliyyətində yeni təşəbbüslərin və layihələrin həyata keçirilməsinin vacibliyini söyləyib.

YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov isə çıxışında gənclərin ictimai-siyasi həyatda fəal iştirakının təmin edilməsinin, onların bilik və bacarıqlarının cəmiyyətin inkişafına yönəldilməsinin vacibliyini bildirib. E.Qasımov, həmçinin gənclər arasında fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında partiyanın xüsusi rolunu qeyd edib.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva çıxışında qadınların və gənclərin ictimai-siyasi fəallığının artırılmasının, onların partiya fəaliyyətində daha geniş iştirakının önəmini vurğulayıb. O bildirib ki, qadınların və gənclərin təşəbbüslərinin dəstəklənməsi ictimai fəaliyyətin daha da canlanmasına və yeni ideyaların formalaşmasına imkan yaradır.

Daha sonra "SOCAR Neftqaztikinti" trestinin rəhbəri Qağaməli Seyfullayev, Xətai Rayon Ağsaqqallar Şurasının sədri Mürvət Əsgərov və Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxış ediblər. Çıxışlarda Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanda xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyi bildirilib.

Konfransda YAP Xətai rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# YAP ölkəmizə bundan sonra da mühüm nailiyyətlər qazandırmaq əzmindədir




Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası dövlətçilik ənənələrinin qorunmasında, ölkədə siyasi sabitliyin və ictimai həmrəyliyin möhkəmləndirilməsində mühüm rol oynayır. O, hesabat dövründə YAP Sumqayıt şəhər təşkilatının gördüyü işlərdən və qarşıda duran vəzifələrdən bəhs edib.

Milli Məclisin deputatı Elnarə Akimova çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rolundan, xalqın etimadını qazanan siyasi qüvvə kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edib. O, partiyanın sıralarında birləşən insanların dövlətçilik prinsiplərinə sadiqliyinin və ictimai fəallığının əhəmiyyətini vurğulayıb.

Milli Məclisin deputatı Hicran Hüseynova Yeni Azərbaycan Partiyasının qadınların və gənclərin ictimai-siyasi fəallığının artırılmasına mühüm töhfələr verdiyini qeyd edib. Millət vəkili YAP Sumqayıt şəhər təşkilatının bu istiqamətdə həyata keçirdiyi tədbirlərin əhəmiyyətini vurğulayıb.

Milli Məclisin deputatı Mehriban Vəliyeva çıxışında Azərbaycanın son illərdə qazandığı tarixi nailiyyətlərdən, ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasından danışıb. Millət vəkili vurğulayıb ki, partiyanın hər bir üzvü öz fəaliyyəti ilə ölkənin inkişafına, dövlətçilik ideyalarının təbliğinə və ictimai həmrəyliyin gücləndirilməsinə töhfə verməlidir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov YAP Sumqayıt şəhər təşkilatının bundan sonra da Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin təbliği, partiya sıralarının daha da genişləndirilməsi və ictimai-siyasi fəallığın artırılması istiqamətində fəaliyyətini ardıcıl şəkildə davam etdirməsinin önəmini diqqətə çatdırıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan, milli maraqların qorunması istiqamətində həyata keçirdiyi fəaliyyətdən və qarşıda duran vəzifələrdən bəhs edib. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi Zəfərin nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpası yeni inkişaf mərhələsinin əsasını təşkil edir. Onun sözlərinə görə, yeni dövrdə Azərbaycanın qarşısında mühüm strateji hədəflər dayanır.

Konfransda YAP Sumqayıt şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Yeni hədəflərin reallaşdırılması növbəti uğurlara yol açacaq




Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Oğuz rayon təşkilatının XII konfransı keçirilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası hər zaman milli maraqların qorunmasında prinsipial mövqe nümayiş etdirir. Onun sözlərinə görə, YAP Oğuz rayon təşkilatı ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin təbliği, milli-mənəvi dəyərlərin qorunması, gənclərin vətənpərvərlik ruhunun artırılması və digər istiqamətlərdə öz fəaliyyətini davam etdirib.

Çıxış edən Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Cavid Əbdul-Qədirov bildirib ki, Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan bu gün dünyanın nüfuzlu və qüdrətli dövlətləri sırasındadır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz davamlı nailiyyətlər qazanmaqdadır. C.Əbdul-Qədirov çıxışında Oğuz rayonunun inkişafı ilə bağlı görülən işlər və bu prosesdə YAP üzvlərinin iştirakı barədə də fikirlərini ifadə edib.

Milli Məclisin deputatı Eyvaz Qurbanov çıxışında Yeni Azərbaycan Partiyasının cəmiyyətin aparıcı siyasi qüvvəsi olduğunu bildirib. O qeyd edib ki, ötən dövr ərzində partiya mühüm uğurlara imza atıb. E.Qurbanovun fikrincə, qazanılan uğurlarla yanaşı, qarşıda dayanan mühüm vəzifələr də vardır və yeni hədəflərin reallaşdırılması növbəti uğurlara yol açacaqdır.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev isə qeyd edib ki, YAP avanqard siyasi qüvvə kimi böyük nüfuza malikdir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının fəaliyyətinin Azərbaycanın uğurlu inkişafının və gələcək perspektivlərinin təmin olunmasında böyük rolu var.

Konfransda, həmçinin YAP Oğuz rayon təşkilatının Qumlaq ƏPT-nin sədri Qamət Nəbiyev, Xalxal ƏPT-nin sədri Ramin Dadaşov, Oğuz şəhər 4 nömrəli ƏPT sədri Günel Abdullayeva, YAP Oğuz rayon təşkilatı Bayan-2 ƏPT sədri Ceyhun Kərimov və təşkilatın veteran üzvü Azad Əliyev çıxış ediblər.

Konfransda YAP Oğuz rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsdirilib.

# Heydər Əliyev yolu Azərbaycanı zirvəyə yüksəldib




Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Goranboy rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, Ulu Öndər Heydər

Əliyevin yaratdığı və Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən Yeni Azərbaycan Partiyası bu gün ölkənin aparıcı siyasi qüvvəsi kimi fəaliyyətini uğurla davam etdirir.

Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını, xalqın etimadını qazanaraq mühüm nailiyyətlərə imza atdığını bildirib.

M.Quliyev Goranboy rayonunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edərək bu prosesdə partiya üzvlərinin roluna diqqəti cəlb edib.

Milli Məclisin deputatı Bədəl Bədəlov çıxışında bildirib ki, müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Onun sözlərinə görə, son illərdə ölkəmizin əldə etdiyi mühüm nailiyyətlər, həyata keçirilən irimiqyaslı layihələr, sosial-iqtisadi inkişaf və beynəlxalq müstəvidə möhkəmlənən mövqelər Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini nümayiş etdirir.

Millət vəkili bildirib ki, bu tarixi uğurların əldə olunmasında ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının xüsusi rolu vardır.

Milli Məclisin deputatı Müşfiq Cəfərov Azərbaycanın son illərdə əldə etdiyi tarixi nailiyyətlərdən danışıb. O, "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət ölkənin siyasi, iqtisadi və sosial inkişafını daha da sürətləndirib, Azərbaycanın beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib", - deyə vurğulayıb. Deputat qeyd edib ki, bu uğurların əsasında xalq-iqtidar birliyi, milli həmrəylik və cəmiyyətin qarşıya qoyulan məqsədlər ətrafında səfərbər olunması dayanır.

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov bildirib ki, YAP-ın fəaliyyəti ölkəmizdə sabitliyin və milli həmrəyliyin qorunmasında mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən insanlar rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər: "Onların dövlətçilik ideyalarına sədaqəti, ictimai fəallığı və təşəbbüskarlığı təqdirəlayiqdir".

Konfransda YAP Goranboy rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# YAP ümumxalq partiyası kimi yüksək nüfuza malikdir





Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Naftalan şəhər təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Naftalan şəhər təşkilatının sədri Rövlan Heydərov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan Yeni Azərbaycan Partiyasının tarixi inkişaf yolu partiyanın yüksək nüfuza malik olduğunu təsdiqləyir: "Ötən müddət ərzində Yeni Azərbaycan Partiyasının təşkilati potensialı daha da güclənmiş, cəmiyyətdə nüfuzu və siyasi çəkisi əhəmiyyətli dərəcədə artmışdır".

Çıxış edən Naftalan Şəhər İcra Hakimiyyəti başçısı səlahiyyətlərini müvəqqəti icra edən Arzu Məmmədov bildirib ki, xalqın böyük etimadını qazanan Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında mühüm rol oynayır. Qeyd olunub ki, Naftalan şəhərində sosial-iqtisadi inkişaf, abadlıq və quruculuq istiqamətində mühüm layihələr həyata keçirilir. O, YAP şəhər təşkilatının bu proseslərdə fəal iştirak etdiyini vurğulayıb.

Milli Məclisin deputatı Bədəl Bədəlov çıxışında qeyd edib ki, müasir dövrdə Azərbaycan həm regionda, həm də beynəlxalq aləmdə söz sahibi olan, dinamik inkişaf edən qüdrətli bir dövlət kimi nüfuzunu gündən-günə artırır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayı partiyanın fəaliyyətinin yeni dövrün tələblərinə uyğunlaşdırılması və ideoloji işin müasir standartlar səviyyəsində qurulması baxımından mühüm dönəm olmuşdur: "Qurultaydan ötən dövr ərzində partiya sıralarının kəmiyyət və keyfiyyətcə zənginləşməsi, gənclərin və ziyalıların fəal təmsil olunması YAP-ın artan nüfuzundan xəbər verir".

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov bildirib ki, YAP Naftalan şəhər təşkilatının hesabat dövründə həyata keçirdiyi fəaliyyət ümumilikdə müsbət dəyərləndirilir: "Ərazi partiya təşkilatları ilə işin əlaqələndirilməsi və üzvlərin fəallığının artırılması istiqamətində görülən işlər təqdirəlayiqdir. Əminik ki, Naftalan şəhər təşkilatı bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasına layiqli töhfə verəcəkdir".

"İslam Həsənzadə küçəsi 20" ərazi partiya təşkilatının sədri, Naftalan Şəhər Uşaq Musiqi Məktəbinin direktor əvəzi Tünzalə Zöhrabova, "Heydər Əliyev Prospekti 204" ərazi partiya təşkilatının sədri, Naftalan Şəhər İmadəddin Nəsimi adına 1 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Fuad Zamanov, gənc partiya fəalı Murad Rzayev çıxışlarında dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin yeni mərhələdə uğurla davam etdirildiyini, gənclərin, ziyalıların və müxtəlif peşə sahiblərinin partiya sıralarında fəallığının daha da artdığını qeyd ediblər.

Konfransda YAP Naftalan şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Yeni Azərbaycan Partiyası öz gücünü xalqın dəstəyindən alır





Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Hacıqabul rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Hacıqabul rayon təşkilatının sədri İsmayıl İbrahimov hesabat məruzəsi ilə çıxış edib. O qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsi olan Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi uğurlara imza atıb. Vurğulanıb ki, sıralarında 700 mindən çox partiya üzvünü birləşdirən Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti Vətənə, xalqa və dövlətə xidmət nümunəsidir.

Çıxış edən Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov bildirib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən şərəfli yol keçərək cəmiyyətin etimadını qazanmışdır. Qeyd olunub ki, sözlə əməl birliyi partiyanın nüfuzunu daha da artırmış, ölkənin aparıcı siyasi təşkilatı kimi mövqeyini möhkəmləndirmişdir.

Milli Məclisin deputatı Heydər Əsədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları əsasında tarixin bütün sınaqlarından uğurla çıxan və dövlətçilik ənənələrinin inkişafına misilsiz töhfələr verən YAP-ın sıraları Prezident İlham Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində günü-gündən genişlənir. O, "Bu gün YAP üzvlərinin sayının 700 mindən çox olması partiyanın gələcəyinə olan inamın göstəricilərindəndir", - deyə vurğulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının daha da yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunması naminə məqsədyönlü siyasət həyata keçirildiyini diqqətə çatdırıb. Bu proseslərdə Yeni Azərbaycan Partiyasının daim ön sırada olduğunu qeyd edən Əli Axundov növbəti dövr üçün qarşıda duran vəzifələrdən danışıb.

YAP Hacıqabul rayon təşkilatının ərazi partiya təşkilat sədri Sevinc Tağıyeva, partiya fəalı Şölə İbrahimova və partiya veteranı, Hacıqabul Rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov Yeni Azərbaycan Partiyasının VII qurultayından ötən dövr ərzində rayon təşkilatının uğurlu fəaliyyətindən bəhs ediblər.

Konfransda YAP Hacıqabul rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# "Gücümüz birliyimizdədir!"





Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Mingəçevir şəhər təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev hesabat məruzəsi ilə çıxış edib. B.Mustafayev bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda xalqın istək və arzularının nəticəsi olaraq tarixi zərurətdən yaranıb. O qeyd edib ki, YAP Mingəçevir şəhər təşkilatı ötən müddət ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb.

Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək bildirib ki, YAP yarandığı vaxtdan ölkəmizin siyasi həyatında uğurla fəaliyyət göstərərək dövlət müstəqilliyinin qorunmasına öz töhfələrini verib. Hazırda digər regionlarda olduğu kimi, Mingəçevir şəhərində də quruculuq işlərinin böyük vüsət aldığını deyən İ.İsmayılov bu prosesdə YAP Mingəçevir şəhər təşkilatının fəallarının da yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Konfransda çıxış edən Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd edib ki, YAP şərəfli inkişaf yolu keçərək ölkəmizin ən güclü siyasi qüvvəsinə çevrilib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni-yeni uğurlar qazanır. Bu uğurlara həmrəyliyimiz və birliyimiz sayəsində nail oluruq. Dövlət başçısının qeyd etdiyi kimi, gücümüz birliyimizdədir".

Partiya veteranı Cavanşir Yusubov və Mingəçevir bələdiyyəsinin sədri Anar İsmayılov çıxış ediblər. Çıxışlarda partiya ideologiyasının geniş ictimaiyyətə çatdırılması, vətəndaşlarla səmərəli ünsiyyətin qurulması, ictimai fəallığın artırılması və sağlam ictimai rəyin formalaşdırılması istiqamətində görülən işlərdən və qarşıda duran vəzifələrdən bəhs olunub.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayından ötən dövr ərzində partiyanın Proqram və Nizamnaməsinin tələblərinə uyğun olaraq yerli təşkilatların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində sistemli işlər həyata keçirilib. O qeyd edib ki, Heydər Əliyev ideyalarının və azərbaycançılıq məfkurəsinin təşviqi, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin və partiyanın dəyərlərinin təbliği daim diqqət mərkəzində saxlanılıb.

Konfransda YAP Mingəçevir şəhər təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib. Eyni zamanda, Yeni Azərbaycan Partiyasının VIII Qurultayına YAP Mingəçevir şəhər təşkilatından nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# YAP xalqın iradəsini ifadə edən aparıcı siyasi qüvvədir





Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı, beynəlxalq nüfuzunun yüksəldilməsi və vətəndaşların rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm nəticələr əldə olunub. Qeyd olunub ki, YAP Abşeron rayon təşkilatı fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun quraraq rayonun ictimai-siyasi həyatında fəal iştirak edib.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev çıxışında Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm rolunu qeyd edib, rayon təşkilatının səmərəli fəaliyyətinin əhəmiyyətindən danışıb. O, təşkilatın fəaliyyətində əldə olunan nəticələri yüksək qiymətləndirərək qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulayıb.

Milli Məclisin deputatı Ramid Namazov çıxışında müasir dövrdə siyasi təşkilatların qarşısında duran çağırışlardan, informasiya təhlükəsizliyinin və cəmiyyətlə düzgün kommunikasiya qurulmasının əhəmiyyətindən bəhs edib. O, həmçinin YAP Abşeron rayon təşkilatının ictimai-siyasi proseslərdə fəal iştirakını vurğulayıb.

Milli Məclisin deputatı Nigar Məmmədova çıxışında ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinin, tarixi Zəfərin milli iradənin və məqsədyönlü dövlət siyasətinin nəticəsi olduğunu bildirib. O, Yeni Azərbaycan Partiyasının bu inkişaf prosesinin siyasi dayaqlarından biri olduğunu vurğulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov rayon təşkilatının hesabat dövründə həyata keçirdiyi tədbirlərin önəminə diqqəti cəlb edib. O, qarşıda duran yeni vəzifələrdən, yerli təşkilatların fəaliyyətinin müasir çağırışlara uyğun qurulmasının vacibliyindən danışıb.

Daha sonra Əkinçilik və Elmi Tədqiqat İnstitutunun direktoru Faiq Xudayev, "Saray 3 saylı" ərazi partiya təşkilatının sədri Təyyubə Hüseynova çıxış ediblər.

Konfransda YAP Abşeron rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Zəfər yolunda inamla irəliləyirik





Sentyabrın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Şirvan şəhər təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, hesabat dövründə Şirvan şəhər təşkilatının üzvləri dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirərək şəhərin ictimai-siyasi və sosial-mədəni həyatında yaxından iştirak edib.

Çıxış edən Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva ötən dövrün ölkəmizin və Yeni Azərbaycan Partiyasının tarixində mühüm uğurlarla səciyyəvi olduğunu bildirib. O qeyd edib ki, Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ölkəmizin ictimai-siyasi həyatında yeni mərhələ açıb, partiyanın ideoloji və ictimai-siyasi fəaliyyətinə güclü stimul verib. A.Fərzəliyeva Şirvan Şəhər İcra Hakimiyyəti ilə YAP Şirvan şəhər təşkilatı arasında qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu, partiya fəallarının şəhərdəki sosial-iqtisadi təşəbbüslərdə yaxından iştirak etdiyini vurğulayıb.

Milli Məclisin deputatı Heydər Əsədov çıxış edərək bildirib ki, Müzəffər Ali Baş Komandanımızın liderliyi, xalqımızın birliyi, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunmuşdur: "Bu tarixi Zəfər xalqımızın yaddaşında əbədi yaşayacaq və gələcək nəsillər üçün qürur mənbəyi olacaqdır. Bu gün azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri sürətlə davam etdirilir, şəhər və kəndlərimiz yenidən qurulur, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin olunur. Bu Zəfər və inkişaf yolunda Yeni Azərbaycan Partiyasının xüsusi rolu vardır".

Daha sonra Şirvan şəhər İcra Hakimiyyəti ərazi partiya təşkilatının sədr müavini Samirə İsmayılova, Uşaq Bağçaları Birliyi ərazi partiya təşkilatının sədri Təranə Əhmədi, Gənclər Evinin müdiri, partiya fəalı Aytac Əliyeva çıxış edərək ölkəmizin qazandığı tarixi uğurlardan, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan və verilən tapşırıqların Şirvan şəhərində yüksək səviyyədə icra olunmasından danışıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin siyasi həyatındakı aparıcı mövqeyindən, beynəlxalq əlaqələrinin inkişafından, yerli təşkilatların strukturlarının yenidən formalaşmasından, maddi-texniki bazasının möhkəmləndirilməsindən söz açıb.

Konfransda YAP Şirvan şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Almaniyada əyalət seçkilərinin qalibi ifrat sağçılar oldular

Avropanın siyasi səhnəsində ciddi dəyişikliklər izlənilir. Bunu Avropa İttifaqının (Aİ) üç ən aparıcı dövlətindən biri olan Almaniyada baş verən son proseslər bir daha təsdiqləyir. Söhbət ilk növbədə bu ölkədə siyasi konfiqurasiyanın əhəmiyyətli dərəcədə dəyişmısindən və ifrat sağçıların mövqeyinin güclənməsindən gedir. Ardıcıl rəy sorğuları ifrat sağçı Almaniya üçün Alternativ (AfD) partiyasının rəqiblərini getdikcə daha böyük fərqlə arxada qoyduğunu göstərirdi. Bu yüksəliş sentyabrın 6-da Almaniyanın Saksoniya-Anhalt əyalətində baş tutan parlament (Landtaq) seçkilərində AfD-nin böyük fərqlə qələbə qazanması ilə nəticələnib.

## AfD üçün rekord göstərici

Bu dəfə AfD beş il əvvəlki seçkilərdən sonra öz nəticələrini iki dəfədən də çox yaxşılaşdıraraq 44 faiz səslə birinci olub. Hazırkı Kansler Fridrix Mertsin partiyası - Xristian Demokratlar Birliyi (CDU) bu müqayisədə səslərinin təxminən yarısını itirərək 17,4 faizlə ikinci olub. Beləliklə, seçkilərin nəticələrinə əsasən yerlər aşağıdakı qaydada bölünüb:

- AfD (İfrat sağçı): 43.8faiz - 39 yer,
- CDU (Xristian Demokratlar - Kansler Fridrix Mertsin partiyası): 17.2 faiz -15 yer,
- SPD (Sosial Demokratlar): 9.3 faiz - 8 yer,
- Yaşıllar: 8.9 faiz - 8 yer,
- Sol partiya: 8.6 faiz - 8 yer
- BSW (Sahra Vaqenknext İttifaqı - Sol populyar): 5.3 faiz - 5 yer.

İndiyədək əyalət hökumətində təmsil olunan Azad Demokratlar Partiyası (FDP) isə 2,5 faiz səslə əyalət parlamentinə daxil olmaq üçün tələb olunan həddi keçə bilməyib.

## Avropada genişlənən ümumi tendensiya

sada keçirilən son seçkilərdə ifrat sağçılar yüksək nəticələr qazanıblar. O cümlədən Fransada 2027-ci ildə keçiriləcək növbəti prezident seçkilərinin favorit namizədlərindən biri Milli Birlik partiyasının lideri Marin Lö Pen sayılır. O, Fransada yaxşı tanınan siyasi fiqurdur. İndiyədək verdiyi bəyanatlara istinad etməklə onu ifrat sağçıların ən ifrat nümayəndəsi kimi təqdim etmək daha doğru olardı. Qeyd edək ki, Marin Lö Pen Makronun ən ciddi tənqidçilərindəndir. O, Fransanın daxili və xarici siyasətdəki uğursuzluqlarını, hökumət böhranlarını, maliyyə çatışmazlığını, artan sosial-iqtisadi çətinlikləri, inflyasiyanın sürətlənməsini, ölkənin beynəlxalq nüfuzunun zəifləməsini Makron siyasətinin "amansız nəticələri" kimi səciyyələndirir.

Almaniyada da oxşar proseslər izlənilir. AfD-nin siyasi xəttində sərt miqrasiya siyasəti, millətçilik və alman milli kimliyinin ön plana çıxarılması mühüm yer tutur. Partiya miqrasiyanı ciddi məhdudlaşdırmaq, deportasiyaları sürətləndirmək, məktəblərdə Almaniya bayrağının hər gün qaldırılmasını və tədbirlərdə dövlət himninin oxunmasını istəyir. Saksoniya-Anhalt proqramında məktəblərdə göy qurşağı bayraqlarının qadağan edilməsi və təhsil və mədəniyyət sahəsində daha ənənəvi dəyərlərin gücləndirilməsi də nəzərdə tutulur.




Qeyd edək ki, AfD-nin yüksəlişi yalnız bir əyalətlə məhdudlaşmır. Son INSA sorğusuna görə, partiyanın ümumölkə üzrə dəstəyi 28 faizə çatıb. Bu göstərici ilə AfD hazırda Almaniyada sorğularda ən populyar siyasi qüvvədir və CDU-nu da qabaqlayır. Son seçkilərin nəticələri göstərir ki, ifrat sağçılar Saksoniya-Anhaltda daha yüksək nüfuza malikdirlər. Partiyanın budəfəki nəticələri AfD-nin 2021-ci ildəki seçki göstəricilərini iki dəfədən çox üstələyir. Bu müqayisədə Kansler Fridrix Mertsin rəhbərlik etdiyi CDU-nun reytinqinin aşağı düşməsi qabarıq şəkildə nəzərə çarpır.

Lakin hələlik ifrat sağçı partiyanın mütləq qələbəsindən danışmaq tezdir. AfD böyük fərqlə qalib gəlsə də, təkbaşına hökumət qurmaq üçün lazım olan mütləq əksəriyyəti (42 yer) qazana bilməyib. Regional hökuməti təkbaşına formalaşdırmaq üçün partiyaya daha 3 yer lazımdır.

Belə olan halda koalisyon hökumət formalaşdırmaq perspektivi yaranır. Partiyanın əyalət üzrə baş nazir postuna əsas namizədi Ziqmund azlıq hökumətinə rəhbərlik etmək istəmədiyini və lazım gələrsə, yenidən seçkilərə gedə biləcəklərini bəyan edib. Koalisiya hökumətinin qurulmasına gəldikdə isə, BSW konkret məsələlər üzrə AfD ilə əməkdaşlığa açıq olduğunu bəyan edib. Bu barədə BSW-nin əsas namizədi Klaudiya Vittiq bildirib.

Almaniyanın digər ənənəvi partiyaları (CDU, SPD, Yaşıllar) AfD-ni "ifrat sağçı və ekstremist" hesab etdikləri üçün onlarla hər hansı bir koalisiya hökuməti qurmayacaqlarını (bu siyasi xətt Almaniyada "Firewall" adlanır) qətiyyətlə bildirirlər. Lakin AfD rəsmiləri digər partiyalara çağırış edərək bu divarın artıq seçicilər tərəfindən dağıdıldığını bildiriblər.

Saksoniya-Anhaltdakı nəticə heç bir halda əyalət səviyyəsində qazanılan nəticə kimi dəyərləndirilə bilməz. 2025-ci il federal seçkisində 20,8 faiz səs qazanan AfD-nin indi ümumölkə sorğularında reytinqinin 28 faizə yüksəlməsi, Saksoniya-Anhaltda isə bütün rəqiblərini böyük fərqlə arxada qoyması Almaniya siyasətində sağ qüvvələrin sürətli yüksəlişinin ən ciddi göstəricilərindən biri sayılır.

Seçkilərin nəticələrinə əsasən iki mühüm məqamı xüsusi qeyd etmək mümkündür. Birinci məqam ümumi Avropa İttifaqı məkanı üçün xarakterik olan tendensiyanı əks etdirir. Son illərdə Avropanın ayrı-ayrı ölkələrində ifrat sağçıların fəallaşdıqları əsas siyasi xətt kimi diqqət çəkir. Məsələn, Aİ-nin digər böyük güclərindən olan Fran-

Vurğulamaq yerinə düşər ki, Saksoniya-Anhaltın yerli Konstitusiyanı Müdafiə İdarəsi AfD-nin əyalət təşkilatını sağ ekstremist kimi təsnif edir. AfD isə ekstremizm ittihamlarını rədd edir və bunu milyonlarla seçicisinə qarşı təhqir və qorxu yaratmaq cəhdi adlandırır.

Əyalət seçkilərinin nəticələri ilə bağlı diqqəti çəkən ikinci mühüm məqam Almaniya cəmiyyətində hazırkı hökumətin fəaliyyətindən artan narazılıqla bağlıdır. Makroiqtisadi göstəricilər ciddi narahatlıq doğurur. Ölkə dövlət borcunun misli görünməmiş səviyyəsi və iqtisadi artımın yavaşlaması fonunda ən yüksək "AAA" kredit reytinqini itirmək təhlükəsi ilə üzləşib. "S&P Global Ratings" agentliyinin nümayəndələri bildiriblər ki, Almaniyanın iqtisadi göstəriciləri bizim gözləntilərimizdən əhəmiyyətli dərəcədə geri qalacağı təqdirdə, bu, ölkənin suveren reytinqi üçün risklər yarada bilər. Bundan az əvvəl Almaniyanın Federal Statistika İdarəsi ölkənin dövlət borcunun 2025-ci ildə yenidən tarixi rekordu qıraraq 2,7 trilyon avro səviyyəsinə yüksəldiyi barədə məlumat açıqlamışdı. Gələn il üçün 629 milyard avro həcmində dövlət xərcləri planlaşdırılıb ki, bunun da 196,5 milyard avrosunu yeni borclanmalar təşkil edir. Beləliklə, büdcədəki, demək olar, hər üçüncü avro borc alətləri hesabına təmin edilir ki, bu da faiz ödənişlərinin durmadan artmasına gətirib çıxarır - cari ildə təxminən 30 milyard, 2027-ci ildə 42 milyard, 2030-cu ilə qədər isə borca xidmət xərcləri 81 milyard avroya qədər arta bilər.

Almaniyada ÜDM istehsalı da əhəmiyyətli dərəcədə azalıb. İqtisadiyyat 2026-cı ilin ikinci rübündə əvvəlki rüblə müqayisədə cəmi 0,3 faiz artıb. Ölkədə büdcə kəsiri də yüksək olaraq qalır. Məlumata əsasən, ilin birinci yarısında dövlət büdcəsinin kəsiri ümumi daxili məhsulun 3,1 faizini təşkil edib.Bu göstərici Avropa İttifaqının Maastrixt meyarları ilə müəyyənləşdirilən 3 faizlik həddi üstələyib. Bütün bu kimi amillər də Almaniyada ifrat sağçıların mövqeyinin güclənməsində mühüm rol oynayır.

***Mübariz FEYİZLİ***

# Beynəlxalq hüququn sərhədi harada bitir

ABŞ Haaqa məhkəməsinə niyə savaş açıb?

Dünyanın diqqəti bu dəfə Yaxın Şərqin cəbhələrindən yox, Haaqadan gələn xəbərə və onun Vaşinqtonda yaratdığı reaksiyaya yönəlib. 18 avqust 2026-cı ildə ABŞ Beynəlxalq Cinayət Məhkəməsinin prezidenti, yapon hakim Tomoko Akane və məhkəmənin Seneqaldan olan yüksək səviyyəli hüquqşünası Abdoulaye Seyə qarşı sanksiya tətbiq etdi. Bu məhkəmə Niderlandın Haaqa şəhərində fəaliyyət göstərir, soyqırımı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə təqsirləndirilən şəxsləri mühakimə etmək üçün yaradılıb. Dövlət katibi Marko Rubio isə Vaşinqtonun bu qərarını məhkəmənin ABŞ və onun müttəfiqlərinin dövlət rəsmilərini araşdırmasına və onların barəsində həbs qərarları çıxarmasına qarşı atılmış addım kimi izah edib.

Məsələni adi diplomatik mübahisədən fərqləndirən əsas məqam budur ki, söhbət konkret bir dövlətə tətbiq edilən sanksiyadan yox, beynəlxalq cinayət ədalətinin işləməsi üçün yaradılmış məhkəmənin hakim və prokurorlarına qarşı iqtisadi və maliyyə təzyiqindən gedir. ABŞ-ın tətbiq etdiyi sanksiyalar Akane və Seylə bağlı ABŞ yurisdiksiyasındakı aktivlərin bloklanmasını, ABŞ vətəndaşlarının və şirkətlərinin onlarla maliyyə əməliyyatları aparmasının qadağan edilməsini nəzərdə tutur. ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsinin (yəni ABŞ sanksiyalarının tətbiqinə cavabdeh qurumun - OFAC) siyahısına salınan şəxslər faktiki olaraq Amerika maliyyə sistemindən kənarlaşdırılır.

Burada əsas mübahisə məhkəmənin hansı işə baxması ilə bağlıdır. Beynəlxalq Cinayət Məhkəməsi 1998-ci ildə qəbul edilmiş və 2002-ci ildə qüvvəyə minmiş Roma Statutu əsasında fəaliyyət göstərir. Roma Statutu məhkəmənin hüquqi əsasını müəyyən edən beynəlxalq müqavilədir. ABŞ bu müqavilənin iştirakçısı deyil, Vaşinqton da məhz buna görə məhkəmənin ABŞ vətəndaşları üzərində yurisdiksiyasını qəbul etmir. İsrail də Roma Statutunun iştirakçısı deyil. ABŞ administrasiyasının arqumentinin hüquqi-siyasi mərkəzində məhz bu məsələ dayanır: dövlət öz razılığını verməmiyi beynəlxalq məhkəmənin öz vətəndaşlarına və dövlət rəhbərlərinə qarşı cinayət yurisdiksiyasını hansı əsasla qəbul etməlidir?

Ancaq Haaqa tərəfinin cavabı da bununla bitmir. Məhkəmənin yurisdiksiyası yalnız təqsirləndirilənin vətəndaşlığı ilə müəyyən edilmir. Roma Statutunun mexanizmlərində cinayətin məhkəmənin yurisdiksiyasını qəbul edən dövlətin ərazisində törədilməsi də mühüm əhəmiyyət daşıyır. Fələstin Roma Statutuna qoşulduğu üçün məhkəmə Qəzza və işğal olunmuş Fələstin ərazilərində törədilməsi iddia olunan cinayətlərlə bağlı öz yurisdiksiyasını əsaslandırır. ABŞ və İsrail isə bu yanaşmanı qəbul etmir. Məhz bu hüquqi mübahisə İsrail baş naziri Benyamin Netanyahu və keçmiş müdafiə naziri Yoav Qallant barəsində verilmiş həbs orderlərinin arxasında dayanan əsas məsələlərdən biridir.

İndi isə mübahisənin daha maraqlı mərhələsi başlanır. ABŞ-ın Tomoko Akane və Abdoulaye Seyə qarşı son sanksiyaları bir gündə yaranmayıb. Prezident Donald Tramp 6 fevral 2025-ci ildə 14203 saylı sərəncamını, yəni Beynəlxalq Cinayət Məhkəməsinə qarşı sanksiyaların hüquqi əsasını yaradan sənədi imzalayıb. Həmin sərəncamdan sonra Vaşinqton məhkəmənin müxtəlif hakim və prokurorlarını ardıcıl olaraq sanksiyalara məruz qoyub. Məhkəmənin 19 avqust 2026-cı il tarixli açıqlamasına görə, son addımlardan sonra onun 18 hakimindən 9-u, iki prokuror müavini, keçmiş baş prokuror və bir əməkdaş ABŞ sanksiyalarının hədəfinə çevrilib.

Bu rəqəm məsələnin miqyasını göstərir. Söhbət artıq bir hakimlə bağlı fərdi siyasi mübahisədən getmir. 18 hakimdən 9-nun ABŞ sanksiyaları ilə üzləşməsi məhkəmənin institusional fəaliyyətinə təzyiq məsələsini ortaya çıxarır. Beynəlxalq Cinayət Məhkəməsinin özü də 19 avqustda verdiyi bəyanatda bu tədbirləri məhkəmənin müstəqilliyinə "açıq hücum" kimi qiymətləndirib, hakim, prokuror və digər əməkdaşların öz hüquqi mandatlarını həyata keçirdikləri üçün təhdid edilməsinin beynəlxalq hüquqi nizama təhlükə yaratdığını bildirib.

Vaşinqton isə məsələyə tamam başqa tərəfdən baxır. Marko Rubio məhkəməni ABŞ-ın və digər razılıq verməmiş dövlətlərin vətəndaşlarına qarşı səlahiyyətlərini aşmaqda ittiham edir, Tramp administrasiyası məhkəmənin fəaliyyətinin ABŞ hərbçilərinə və dövlət rəsmilərinə qarşı potensial təqib imkanlarını aradan qaldırmağı əsas məqsədlərdən biri kimi göstərir. ABŞ rəsmiləri həmçinin Roma Statutuna üzv ölkələrə məhkəmədən çıxmaq üçün siyasi təzyiq göstərməyə çalışırlar. Burada beynəlxalq hüquq üçün çox ağır sual yaranır: Beynəlxalq məhkəmə böyük dövlətin siyasi iradəsi ilə razılaşmadıqda həmin dövlət məhkəməyə qarşı iqtisadi gücündən istifadə edə bilərmi? Vaşinqtonun cavabı faktiki olaraq müsbətdir, çünki ABŞ öz milli suverenliyini və vətəndaşlarının razılığı olmadan beynəlxalq cinayət yurisdiksiyasına məruz qalmamasını əsas prinsip kimi irəli sürür.

Haaqa isə tamam başqa prinsipdən çıxış edir: məhkəmənin mandatını ayrı-ayrı dövlətlər yox, Roma Statutunun iştirakçısı olan dövlətlər verib və məhkəmə həmin mandatı siyasi təzyiqdən asılı olmadan həyata keçirməlidir. Məhkəmənin özünün 19 avqust bəyanatında məhz bu məqam vurğulanır.

Bu qarşıdurmanın daha bir mühüm tərəfi var: ABŞ özü məhkəmənin üzvü deyil, lakin məhkəmənin qərarları və fəaliyyəti ABŞ-ın ən yaxın müttəfiqlərindən biri İsrailə toxunur. Bu səbəbdən məsələ artıq yalnız hüquqi mübahisə deyil, ABŞ-İsrail münasibətləri, Qəzzadakı müharibə və beynəlxalq məsuliyyət məsələsinin bir hissəsinə çevrilib. Tramp administrasiyası açıq şəkildə bildirir ki, məhkəmənin İsrail rəsmilərinə qarşı fəaliyyəti Vaşinqton tərəfindən qəbul edilmir. Məhz buna görə Tomoko Akanenin hədəfə alınması xüsusi siyasi çəki daşıyır. Akane adi məhkəmə əməkdaşı deyil, o, 2024-cü ildən Beynəlxalq Cinayət Məhkəməsinin prezidentidir və məhkəmənin ən yüksək institusional nümayəndəsidir. Yaponiya Xarici İşlər Nazirliyi 19 avqustda Vaşinqtonun qərarını "son dərəcə təəssüf doğuran" addım adlandırıb və ölkəsinin Beynəlxalq Cinayət Məhkəməsini ardıcıl şəkildə dəstəklədiyini bildirib.

Yaponiyanın reaksiyası təsadüfi deyil. Tokio ABŞ-ın əsas hərbi və siyasi müttəfiqlərindən biridir. Buna baxmayaraq Yaponiya öz vətəndaşı olan Beynəlxalq Cinayət Məhkəməsi prezidentinə tətbiq edilən sanksiyanı etirazla qarşılayıb. Bu fakt göstərir ki, məsələ Vaşinqtonun konkret olaraq İsraillə bağlı siyasətindən çıxaraq ABŞ-ın beynəlxalq hüquq institutları ilə münasibətləri məsələsinə çevrilməyə başlayır.

Avropa İttifaqı da ABŞ-ın addımını tənqid edib. Aİ xarici siyasət üzrə ali nümayəndəsi Kaya Kallas məhkəməyə və onun əməkdaşlarına təzyiqin məhkəmənin müstəqilliyinə və fəaliyyətinə zərər verdiyini bildirib, Avropa İttifaqının Roma Statutuna və Beynəlxalq Cinayət Məhkəməsinə dəstəyini təkrar təsdiqləyib.

Beləliklə, qarşıdurmanın bir tərəfində ABŞ-ın milli suverenlik arqumenti, digər tərəfində isə beynəlxalq cinayət ədalətinin universallığı və məhkəmənin institusional müstəqilliyi dayanır. Məsələnin mürəkkəbliyi də bundadır. Əgər beynəlxalq məhkəmə yalnız onu qəbul edən dövlətlərin vətəndaşları barəsində qərar çıxara bilsəydi, beynəlxalq cinayət hüququnun təsir dairəsi ciddi şəkildə məhdudlaşardı. Əksinə, əgər məhkəmə istənilən dövlətin vətəndaşı haqqında həmin dövlətin razılığı olmadan hökm verə bilsə, bu dəfə dövlət suverenliyi və yurisdiksiya sərhədləri ilə bağlı ciddi suallar meydana çıxır. Haaqa ilə Vaşinqton arasındakı mübahisənin əsl düyünü məhz bu iki prinsipin toqquşduğu yerdədir.

Üstəlik, söhbət yalnız ABŞ-dan getmir. Beynəlxalq Cinayət Məhkəməsinin prezidenti Tomoko Akane iyulun 28-də Yaponiyada çıxış edərkən Tramp administrasiyasının üzv dövlətlərə məhkəmədən çıxsınlar deyə təzyiq göstərdiyini və bunun məhkəmə üçün böhran yaratdığını bildirib. O, Yaponiyanın digər Asiya ölkələrini məhkəmədə qalmağa təşviq etməsini istəyib. Akane eyni zamanda "böhran" olduğunu, lakin məhkəmənin məğlub olmadığını vurğulayıb. Bu isə məsələnin gələcək mərhələsinə işarədir. ABŞ artıq yalnız konkret hakimləri sanksiyaya məruz qoymur, məhkəmənin beynəlxalq siyasi dayaqlarını zəiflətməyə çalışır. Digər



tərəfdən, məhkəməyə üzv dövlətlər onun müstəqilliyini qorumağa çalışır. Burada qarşıya çıxan əsas sual belədir: Roma Statutuna qoşulmuş dövlətlər ABŞ-ın təzyiqi qarşısında Haaqa ilə həmrəy qalacaq, yoxsa dünyanın ən güclü siyasi və iqtisadi dövlətinin təzyiqi məhkəmənin beynəlxalq dayaqlarını tədricən zəiflədəcək? Çünki bu mübahisənin gözlənən nəticəsi yalnız Tomoko Akane, Abdoulaye Sey və ya Benyamin Netanyahu ilə bağlı deyil. Nəticə daha böyükdür. Bu, dövlət suverenliyi ilə beynəlxalq cinayət məsuliyyəti arasında sərhədin haradan keçəcəyini müəyyənləşdirən mübarizəyə çevrilir.

Əgər böyük dövlətlər beynəlxalq məhkəmənin qərarlarını öz milli maraqlarına uyğun gəlmədikdə hakim və prokurorlara sanksiya tətbiq etməklə cavablandırmağa başlayırsa, beynəlxalq hüququn siyasi gücdən nə qədər müstəqil qala biləcəyi sualı qaçılmaz olur. Əksinə, beynəlxalq məhkəmə böyük dövlətlərin və onların müttəfiqlərinin razılığı olmadan belə araşdırma və təqib imkanını qoruyursa, onda dövlət suverenliyinin klassik anlayışının sərhədləri dəyişir. Haaqa ilə Vaşinqton arasındakı bugünkü qarşıdurmanın əsl əhəmiyyəti də məhz budur: söhbət bir məhkəmədən yox, gələcəkdə beynəlxalq hüququn kimə və hansı həddə qədər toxuna biləcəyindən gedir.



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Doğrunu yanlışdan ayıran güc




İnsan dünyaya göz açdığı gündən etibarən öyrənməyə başlayır. İlk söz, ilk hərf, ilk kitab, ilk sual... Zaman keçdikcə bu kiçik addımlar insanın dünyagörüşünü formalaşdırır. Lakin savadlı olmaq yalnız əlifbanı bilmək, mətni oxumaq və öz fikrini yazılı şəkildə ifadə etməkdən ibarət deyil. Savadlılıq məlumatı anlamaq, onu təhlil etmək, doğru ilə yanlışı ayırmaq və əldə etdiyi bilikdən düzgün istifadə etmək bacarığıdır.

Bu gün informasiya həyatımızın ayrılmaz hissəsinə çevrilib. Telefon ekranında bir neçə saniyə ərzində yüzlərlə xəbər, fikir və məlumat qarşımıza çıxır. Belə bir dövrdə savadlı insan olmaq daha böyük əhəmiyyət daşıyır. Çünki əsas məsələ artıq məlumatı tapmaq deyil, hansı məlumatın doğru olduğunu müəyyənləşdirməkdir.

## Savadlı insan kimdir?

Savadlı insan çox kitab oxuyan və ya çox söz bilən şəxsdən daha geniş anlayışdır. Savadlı insan eşitdiyi hər məlumatı düşünmədən qəbul etmir. Sual verir, araşdırır, müqayisə edir və nəticə çıxarır. O, öz fikrini başqasına hörmətlə çatdıra bilir. Bilmədiyi məsələni etiraf etməkdən çəkinmir. Yeni bilik əldə etməyə həmişə açıq olur.

Əsl savadlılıq həm də insanın gündəlik həyatında özünü göstərir. Məsələn, hər hansı müqaviləni imzalamazdan əvvəl onun şərtlərini oxumaq, bank əməliyyatlarını başa düşmək, sağlamlıqla bağlı məlumatın mənbəyini yoxlamaq, sosial şəbəkədə yayılan xəbərin həqiqiliyini araşdırmaq da savadlılığın göstəricilərindəndir.

## Savadlılığın başlanğıcı...

Savadlılığın təməlində oxumaq dayanır. Məlumdur ki, kitab insanın qarşısında yeni dünyalar açır, söz ehtiyatını zənginləşdirir, düşüncə sərhədlərini genişləndirir. Müxtəlif mövzularda oxuyan insan hadisələrə yalnız bir tərəfdən deyil, fərqli baxışlardan yanaşmağı öyrənir.

Ancaq müasir dövrdə oxumaq anlayışı da dəyişib. İnsan yalnız kitab deyil, xəbər, elmi məqalə, elektron sənəd, statistik məlumat və müxtəlif rəqəmsal mənbələrlə də işləyir. Buna görə müasir savadlılıq ənənəvi oxu-yazı bacarıqları ilə yanaşı, media və rəqəmsal savadlılığı da əhatə edir.

## Savadlı cəmiyyət - güclü cəmiyyət

Bir ölkənin inkişafını yalnız iqtisadi göstəricilərlə ölçmək mümkün deyil. Cəmiyyətin təhsil və savadlılıq səviyyəsi də onun gələcəyini müəyyən edən əsas amillərdəndir. Savadlı cəmiyyət hüquqlarını və məsuliyyətlərini bilən, qanunlara hörmət edən, sağlam düşünən, ictimai proseslərdə daha şüurlu iştirak edən insanlardan formalaşır.

Belə cəmiyyətdə insanlar problemlərə emosiyadan daha çox məntiqlə yanaşmağa, fərqli fikirlərə hörmət etməyə və müzakirə yolu ilə nəticəyə gəlməyə meyilli olurlar.

## Savadlılıq yalnız məktəbdə formalaşmır

Savadlılığın əsasları məktəbdə qoyulur. Uşaq burada oxumağı, yazmağı, hesablamağı və müxtəlif elmlərin əsaslarını öyrənir. Lakin savadlılığın inkişafı məktəbi bitirməklə başa çatmır. İnsan ömrünün sonuna qədər öyrənə bilər. Yeni dil öyrənmək, kitab oxumaq, peşə bacarıqlarını artırmaq, texnologiyaları mənimsəmək, dünyada baş verən prosesləri izləmək insanın intellektual inkişafına xidmət edir. Başqa sözlə, savadlılıq sonu olan yol deyil, ömürboyu davam edən prosesdir.

## “İnsanlar, planet və rifah naminə savadlılıq”

Yeri gəlmişkən, sentyabrın 8-i Beynəlxalq Savadlılıq Günüdür. UNESCO tərəfindən 1967-ci ildən qeyd olunan bu əlamətdar günün məqsədi savadlılığın insanlar, icmalar və ümumilikdə cəmiyyət üçün faydasına diqqəti cəlb etməkdir. UNESCO-nun saytında qeyd olunan məlumata əsasən, bu il Beynəlxalq Savadlılıq Günü “İnsanlar, planet və rifah naminə savadlılıq” devizi altında qeyd olunur.

Qeyd edək ki, Azərbaycanda təhsilə dövlət qayğısı ildən-ilə artır. Bu qayğının nəticəsidir ki, indi ölkəmizdə savadlılıq yüz faiz təmin olunub. Hazırda Azərbaycanda təhsil sistemində beynəlxalq standartlara uyğun fundamental islahatlar aparılır, təhsilin bütün pillələri üzrə dövlət proqramları uğurla həyata keçirilir. Təhsilimizin milli, ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında inkişafına geniş imkanlar yaradılıb.

Bir çox ölkələrin nəzərəçarpacaq uğurlarına baxmayaraq, UNESCO-nun məlumatlarına görə, dünyada 759 milyon yaşlı (onlardan 102 milyonu 15-24 yaşlı gənclərdir) hələ də savadlılığın əsas vərdişlərindən məhrumdur. Uşaq və yeniyetmələrin hər on nəfərindən altısı (617 milyon) oxuma və saymaq vərdişlərinin minimal səviyyələrinə çata bilmir. Təxminən 267 milyon uşaq məktəbə getmir.

Özünə xüsusi diqqət tələb edən obyektlər, ilk növbədə, məktəbdən kənarda qalan qadınlar və qızlar arasında savadlılığın yayılması proqramlarının genişləndirilməsinə ciddi ehtiyac var. Kişilərin və oğlanların keyfiyyətli təhsil almaq imkanlarından məhrum olduqları yerlərə də xüsusi diqqət ayrılmalıdır. Ona görə də bügünkü tarix mövcud problemlərin yeni həll yollarını təklif etməklə, gələcəkdə savadlılıq səviyyəsinin yüksəlməsinə nail olmaq üçün meydandır.

***Yeganə BAYRAMOVA***

# Taksilərlə bağlı narazılıqlar bitmir

## Keyfiyyət, gedişdən imtina, yekun ödənişdə gözlənilməz hallar...

Şəhər həyatının ayrılmaz hissəsinə çevrilən taksi xidməti sərnişinlər üçün ilk növbədə rahatlıq, əlçatanlıq və təhlükəsizlik deməkdir. Lakin son zamanlar taksidən istifadə edən vətəndaşların narazılıqları artır. Bu sahədə həllini gözləyən problemlər hələ də kifayət qədərdir.

Sərnişinlərin ən çox şikayət etdiyi məsələlərdən biri xidmət keyfiyyətidir. Bəzən sifariş qəbul edilir, lakin avtomobilin gəlməsi uzun müddət çəkir. Bəzi hallarda sürücü sifarişi qəbul etdikdən sonra müxtəlif səbəblərlə gedişdən imtina edir. Bu, sərnişin üçün xüsusilə işə, dərsə və ya vacib görüşə tələsdiyi zaman ciddi problem yaradır. Yağış yağanda isə vəziyyət daha da mürəkkəbləşir. Halbuki məhz belə hava şəraitində taksiyə ehtiyac artır.

Xatırladaq ki, 2024-cü ildə taksi fəaliyyətinin tənzimlənməsinə dair müəyyən qaydalar hazırlanmışdı. Həmin qaydalar içərisində sürücülər üçün də müvafiq tələblər var. Xüsusilə də, sürücülərin psixoloji və tibbi müayinələrdən keçməsi əsas amillərdən biri olaraq qeyd olunub. Eyni zamanda, vətəndaşlara daha keyfiyyətli xidmətin göstərilməsi əsas tələblərdən biri kimi vurğulanıb. Lakin bu tələblərə baxmayaraq, taksi sürücüləri və ümumilikdə taksi fəaliyyətinə dair narazılıqlar bitmək bilmir.

## Problemlər niyə həllini tapmır?

Nəqliyyat üzrə ekspert İlqar Hüseyni “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, taksi fəaliyyətində sərnişinlərin narazılığına səbəb olan məqamlardan biri də qiymətlərlə bağlıdır: “Bəzən sərnişinlər bildirirlər ki, eyni məsafəyə görə ödənilən məbləğ günün saatından, yol vəziyyətindən və digər amillərdən asılı olaraq kəskin dəyişə bilir. Qiymətin əvvəlcədən aydın və başadüşülən şəkildə göstərilməsi vacib olsa da, bəzi sərnişinlər yekun ödənişlə bağlı gözlənilməz hallarla qarşılaşdıqlarını deyirlər.

Xidmət mədəniyyəti də ayrıca müzakirə mövzusudur. Sürücünün sərnişinlə ünsiyyəti, avtomobilin təmizliyi, salonun vəziyyəti və yol hərəkəti qaydalarına münasibəti taksi xidmətinin keyfiyyətini müəyyən edən əsas amillərdəndir. Təəssüf ki, bütün sürücülər bu standartlara eyni səviyyədə əməl etmir.

## Eyni məsafəyə niyə fərqli məbləğ ödəyirik?

Sərnişinlərin narazılığı yalnız komfortla məhdudlaşmır. Təhlükəsizlik məsələsi daha ciddi yanaşma tələb edir. Sürücünün avtomobili idarə etmə tərzi, sürət həddinə münasibəti və yol hərəkəti qaydalarına riayət etməsi sərnişinin həyat və sağlamlığı ilə birbaşa bağlıdır. Taksi xidmətində əsas prinsip “sərnişini mümkün qədər tez ünvana çatdırmaq” yox, “sərnişini təhlükəsiz şəkildə ünvana çatdırmaq” olmalıdır”.




## Şikayətlərimiz həqiqətən eşidilir?

İ.Hüseynlinin fikrincə, taksi xidmətinin inkişafı üçün şikayətlərin toplanması kifayət deyil. Həmin şikayətlər təhlil edilməli, təkrar olunan problemlərin səbəbləri araşdırılmalı və pozuntulara qarşı real nəzarət mexanizmləri işləməlidir: “Əks halda, tətbiqdə bir neçə düyməyə basmaqla taksi sifariş etmək mümkün olsa da, keyfiyyətli xidmət almaq hələ də bəzi sərnişinlər üçün təsadüfə çevriləcək. Sərnişin nə güzəşt, nə də xüsusi münasibət tələb edir. Onun istədiyi sadədir: sifariş etdiyi taksi vaxtında gəlsin, qiymət aydın olsun, sürücü qaydalara əməl etsin və xidmət mədəniyyəti qorunsun. Bunlar əlavə üstünlük deyil, normal taksi xidmətinin minimum tələbləridir”.

## Sərnişin pul ödəyirsə, qarşılığını da almalıdır...

Ekspert qeyd edib ki, məsələnin başqa tərəfi sürücülərin öz problemləridir: “Taksi sektorunda çalışan insanların iş şəraiti, gəlirləri, komissiya və yanacaq xərcləri də xidmətin keyfiyyətinə təsir edən amillərdəndir. Yeni problemin yalnız sürücünü günahlandırmaqla həll olunacağını düşünmək düzgün olmaz. Keyfiyyətli xidmət üçün həm sərnişinin, həm sürücünün, həm də xidmət platformalarının maraqlarını nəzərə alan sistem lazımdır.

Əslində, taksi xidməti şəhərin nəqliyyat sisteminin mühüm hissəsidir. Bu səbəbdən vətəndaşın narazılığı sadəcə bir taksi səfərindən narazılıq kimi qiymətləndirilməməlidir. Sərnişin pul ödəyirsə, bunun qarşılığında təhlükəsiz, şəffaf və mədəni xidmət almaq hüququna malikdir”.

***Yeganə BAYRAMOVA***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4448**
**Sifariş: 1158**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova